# KARVANSARALAR

**İctimai tikili olmaq etibarı ilə karvansaraların özünəməxsus görkəmi, əhəmiyyəti ilə bağlı tədqiqatçılarımız maraqlı fikirlər söyləmişlər. ("История Архитектуры Азербайджана", Москва, 1963 г.). Müxtəlif əsrlərdə Azərbaycana gəlmiş tarixçilər və səyyahların demək olar ki, hamısı buradakı karavansaralarla maraqlanmış, bu memarlıq nümunələrinin quruluşu barədə məlumatlara üstünlük vermişlər. Qədim dövrün Azərbaycan şəhərləri ilə sıx bağlı olan karvansaralar yaşayış evləri və məscidlərdən sonra nəzərə çarpacaq dərəcədə yer tutan obyektlərdən hesab olunur.**

**Övliya Çələbi özünün 1314-cü ildə (hicri) İstanbulda çap etdirdiyi "Səyahət kitabı"nda təkcə Təbrizdə 200 karvansaranın olmasından xəbər vermişdir. (Ö.Çələbi - "Səyahət kitabı", II hissə, səh.251)**

**Tədqiqatçı alimlərimiz karvansaraların XVI əsrə qədər keçdikləri uzun, lakin çətin yolun onların mövcudiyyətinin ilk dövrlərindəki kimi əsas simasını və arxitektura görünüşünü saxlamalarını dönə-dönə qeyd etmişlər. Ədəbi məlumatlardan aydın olur ki, onlar XV-XVII əsrlərdə ticarət məqsədilə izdihamlı karvan yollarının üstündə inşa edilmişdir.**

Qeyd etmək lazımdır ki, ticarət məqsədilə inşa edilmiş karvansaraların digər karvansaralardan fərqli cəhətləri çoxdur. Şəhərlərdə inşa edilmiş karvansaralar yalnız səyyahların yol gedərkən dayandıqları yer kimi deyil, onların hərtərəfli ticarət əməliyyatları aparmaq üçün müvəqqəti dayanacaq məntəqəsi rolunu da oynamışdır. Şəhər karvansarası əsasən şəhərin bazar hissəsi ilə kəsişən yerlərdə və ya bazara yaxın inşa edilərdi. Burada bazar məqsədləri üçün yardımçı binalar da tikilərdi. Buna xarakterik hal kimi bizim zamanlara qədər gəlib çatmış Bakı şəhərindəki karvansaranı misal göstərmək olar.

Yazılı mənbələr İran və Azərbaycan ərazisində çoxlu sayda karvansaraların mövcud olmasını göstərir. Bu məlumatları təhlil edərkən məlum olur ki, karvansaraların tikintisi Azərbaycanın bütün yerlərində eyni prinsip üzərində qurulmuşdur. Maraqlı burasıdır ki, bir sıra salnamələr müxtəlif şəhərlərdə eyni adlı karvansaraların mövcudluğunu göstərir. Misal üçün, "Şah", "Ləzgi", "Multanı" karvansaraları barədə Bakıda və Şamaxıda da məlumatlar vardır. Bu hal onunla izah olunur ki, bir xalqa mənsub olan tacirlər yad şəhərlərdəki karvansaralarda dəfələrlə olduqları üçün sonralar onları öz xalqının adı ilə adlandırılmağa cəhd göstərirdilər. Alıcılar müxtəlif növ əmtəəni almaqdan ötrü "ixtisaslaşmış" ayrı-ayrı karvansaralara üz tutur, özlərinə lazım olan materialları əldə edirdilər.

Üzərində "şah" və "xan" titulu olan karvansaraların dövlətə məxsus olması barədə səyyahlar müəyyən məlumatlar da vermişlər.

Ticarət yolu üzərində inşa edilən karvansaralar adətən səyahətçilərin yolu gündüz qət etmələrinin keçidi kimi nəzərdə tutulurdu. Bu zaman karvansaranın ətrafında və əhatəsində içməli su mənbələrinin olması mütləq nəzərdə tutulardı. Abşeronda və ona yaxın yerlərdə belə su mənbələri ovdanlar idi.

Karvansaraların mənşəyinin iri əhatəli dəhlizi olan yaşayış evlərindən götürülməsi və bu tikintiyə oxşadılması ənənəvi olaraq Şərdə çox qədim zamanlardan geniş yayılmışdır. Demək olar ki, bütün karvansaralar bilavasitə bu prinsiplər üzərində inşa edilmişdir. Bu dövrlərdə inşa edilmiş karvansaralar bütövlükdə düzbucaqlı planda olmuşdur. Başqa növ karvansaralara da rast gəlinmişdir ki, onların düzbucaqlı xarici görkəmi səkkizguşəli plana malikdir.

Karvansaraların orta hissəsində çox vaxt su hovuzu düzəldilirdi ki, bu da dəhliz hissəsinin kompozisiya həllində müəyyən rol oynayırdı. Çox güman ki, su hovuzu olan bu meydan tacirlərin ticarət sazişlərini bağlamaları üçün əlverişli məkan kimi nəzərdə tutulurdu.

Astara rayonunun Qapıçıməhəllə kəndinin ərazisində, düz yolun üstündə karvansara tikilişinin qalıqları indi də qalmaqdadır. Qapıçıməhəllə kəndi Azərbaycan Respublikasının İran İslam Respublikası ilə sərhədində yerləşir. Barəsində çox az məlumat olan tarixi qaynaqlarda göstərilir ki, bu kənddə hələ VII əsrdə karvansara və ya ribat mövcud olmuş, bura Ön Asiya və Ərəb ölkələri ilə ticarət əlaqələrinin saxlanılmasında böyük rolu olmuşdur. Karvansaranın ətrafında aparılan tədqiqatlar göstərir ki, burada həmçinin qədim şəhər mövcud olmuş, sonralar bu əzəmətli tikili və karvansara dağıntıya məruz qalmış, kərpici və digər tikinti materialları sökülərək başqa yerə aparılmışdır. Seid Əli Kazımbəy oğlu XIX əsrin əvvəllərində qələmə aldığı "Cəvahirnameyi-Lənkəran" adlı əsərində belə yazır: "Astara çayının o biri sahilində Qapuçı adlı məhəllənin cənub hissəsində qala və bina abidələri çoxdur. Eləcə də Qapuçının özündə bişmiş kərpic və daşdan tikilmiş məşhur abidələr məhəllsəsi, böyük məscidin binası və yeddi hamam mövcuddur. Bu yer qədim dövrlərdə hökmdarların iqamətgahı və inzibati mərkəzi olub. Son zamanlar buranın dağıdılmış və viran olmuş tikililərini, yaxşı yonulmuş, köhnə daşlarını mayor Hacı Mirabbas bəy Lənkərana daşıtdırmış, qızılbaş sərhəddinin hakimi Mir Sultan Əhməd xan Seyfülmülkün işçiləri isə Astara limanının tikililərinə aparıb ondan istifadə etmişlər. (S.Ə.Kazımbəy oğlu - "Cəvahirnameyi-Lənkəran" kitabı, Bakı 2000-ci il, səh 32.) Maraqlı burasıdır ki, Qapıçıməhəllə kəndində yerləşən bu karvansara-ribatın ətrafındakı yaxın yerdə 6 ədəd yeraltı ovdan, böyük məscid və arxa hissəsində qədim qəbristanlıq mövcuddur. Hazırda burada məscidin qalıqlarından yerli əhali inanc yeri "pir" kimi istifadə edirlər. Yaxınlıqdakı sahədə olan ovdan - su mənbəyi kimi dağdan axıdılan kəhriz suyunun Astara şəhəri və onun ətraf kəndlərində istifadə olunması ta qədim zamanlardan indiyə qədər fasiləsiz olaraq mövcudluğunu itirməmişdir.

Azərbaycan ərazisindəki karvansaralar özünün sadə və dəqiq konstruksiya həlli ilə seçilən arxitektura nümunələridir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli, 122 saylı Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası ərazisində dövlət mühafizəsinə götürülmüş daşınmaz tarix - mədəniyyət abidələrinin əhəmiyyət dərəcələrinə görə bölgüsü"ndə "Ölkə əhəmiyyətli" abidə kimi Bakı şəhəri "İçərişəhər Dövlət Tarix və Memarlıq Qoruğu"nda olan, Qüllə küçəsi 2-də yerləşən XV-XVI əsrlərə aid "Buxara" karvansarası, Qüllə küçəsi 9-da yerləşən və XV-XVI əsrlərə aid "Multani" karvansarası, H.Rzayeva küçəsi 1-də yerləşən XVII əsrə aid "Kiçik karvansara", H.Rzayeva küçəsi 9-da yerləşən XVII əsrə aid "İkimərtəbəli karvansara", Qala Tarix Etnoqrafiya Qoruğundakı (Sülh küçəsi) karvansara, Qaradağ dəmir yolu stansiyasındakı XIV əsrə aid karvansara, Sərkəçal qəsəbəsindəki Miəcik ərazisində yerləşən XV əsrə aid "Qaraçı karvansara", Səngəçal qəsəbəsindəki XV əsrə aid karvansara, Nardaran qəsəbəsindəki 1681-ci ilə aid karvansara, Füzuli rayonunun Qarğabazar kəndindəki XVII əsrə aid karvansara, Hacıqabul rayonunun Qubalı Baloğlan kəndindəki XIII əsrə aid karvansara, Culfa şəhərinin yaxınlığındakı XII-XIII əsrlərə aid karvansara, "Gülüstan" Tarix-Mədəniyyət Qoruğu, Çuğa kəndindəki XIII əsrə aid karvansara, "Yerli əhəmiyyətli" abidə kimi, Binəqədi rayonunun Xoca Həsən qəsəbəsindəki XVIII əsrə aid karvansara, Sabunçu rayonunun Bilgəh qəsəbəsindəki XVII əsrə aid karvansara, Balaxanı qəsəbəsindəki 1635-ci ilə aid karvansara, Abşeron rayonunun Saray qəsəbəsindəki karvansara, Ağdam rayonunun Şahbulaq kəndindəki XVIII əsrə aid karvansara, Hacıqabul rayonu, Hacıqabul gölünün Şərq sahilində yerləşən XV əsrə aid karvansara, Qobustan rayonunun Mərəzə qəsəbəsindəki XVII əsrə aid karvansara, Xilmilli kəndindəki XV əsrə aid karvansara, Qusar rayonunun Girik kəndindəki orta əsrlərə aid karvansara dövlət mühafizəsinə götürülmüşdür.

**Əfqan Şəfiyev,**
**YUNESKO-nun Beynəlxalq Muzeylər Şurasının həqiqi üzvü**